ədalət.- 2020.- 17 oktyabr.- S.16

Ələsgər ƏLİOĞLU

# BİR TAY AYAQQABI



**Hekayə**

*Yay yır-yığış eləyib köçünü sürməyə hazırlaşırdı. Arxadan payızın hənirtisi gəlirdi. Səhər-axşam havada azacıq da olsa soyuqluq hiss olunurdu. Bankomatdan pensiyasını çıxaran Qarabağ qazisi Nüsrət qoltuq ağacına söykənə-söykənə, küçəylə yavaş-yavaş univermağa yaxınlaşırdı.Ayağındakı tor-tor ayaqqabının ağız-burnu əyilmiş və nimdaş bir görkəm almışdı...*

*O, döyüşlərdə olarkən yaş səngərlərdə uzanmaqdan revmatizm tapdığından həmişəki kimi indi də hiss etdi ki,bədəni çisəkli havadan cimildəşir. Buna görə də univermaqdan bir ayaqqabı almaq fikrinə düşdü...*

*Univermaq çox tünlük idi. Görünür, bu da mövsümi pal-paltar dəyişikliyi ilə bağlıydı... Nüsrət ayaqqabı bölməsinə yaxınlaşdı. Rəfləri bir-bir nəzərdən keçirdi. Baxışları burnu nisbətən enli, qara bir ayaqqabının üstdə bənd aldı. Şəhadət barmağını uzadıb, üzünü satıcı qıza tutdu:*

*-Qızım, o ayaqqabının qırx ikisi varmı?*

*Qız dilləndi:*

*-Var, əmi.*

*-Bir onu verin baxım.*

*-Buyurun, əmi.*

*Nüsrət bölmənin böyür tərəfində qoyulmuş kətildə əyləşib, içi keçəli ayaqqabının sağ tayını ayağına keçirdi. Gördü ki, çox rahatdır və ayaqqabını ayağndan çıxarıb qıza uzatdı:*

*-Qızım, zəhmət olmasa, bunu bir torbaya büküb verin.*

*Sonra əlini qoltuq cibinə atıb almış olduğu pensiyanın üstdən bir "iyirmilik" çıxartdı:*

*-Buyurun, pulunuzu götürün.*

*Satıcı qız pulu alıb ayaqqabını torbaya qoymaq istəyərkən Nüsrət dilləndi:*

*-Sol tayı lazım deyil, a bala, mənə yük eləməyin...Sağ tayını bükün ...*

*Bayaqdan bəri alış-veriş sıxlığından Nüsrətə elə də dərindən nəzər yetirə bilməyən satıcı qız tərəddüd içərisində:*

*-Əmi, biz ayaqqabının bir tayını satmırıq,-deyə şübhəli baxışlarla onu süzdü və sonra azacıq ayağının ucuna qalxaraq piştaxtanın qarşısında dayanan Nüsrətə dərindən nəzər yetirdi...İndi ona hər şey aydın oldu.*

*Satıcı qız anidən fikrə getdi. Sonra duruxmuş və kövrək bir halda dilləndi*

*-Əmi, onda pulunuzun qalığını götürün, on manatdır...*

*-Yox, ay qızım, pulu tam ödəməliyəm. Elə də şey olar. Sadəcə olaraq ayaqqabının sol tayını özümə yük eləmək istəmədim. Bir də ki, bu ayaqqabının sol tayını kim alacaq ki? Pulunu ödəməliyəm...*

*Satıcı qız :*

*-Mən götürərəm, əmi, heç narahat olmayın!*

*Nüsrət özünü itirən kimi oldu:*

*-Nə danışırsınız, qızım? Yoxsa məni sarıyırsiniz?*

*-Yox, yox, əmi,niyə elə düşünürsünüz!? Atamın da ayaqqabısı çox köhnəlib...Onun da ayağının ölçüsü qırx ikidir... Atam Qarabağ müharibəsi veteranıdır.Cəbhədə sağ ayağını itirmişdir...*

*Nüsrət könüllü-könülsüz pulun qalığını alıb cibinə qoydu və satıcı qıza "sağ ol" deyib, qoltuq ağacına söykənə-söykənə bayıra çıxdı...*

*Narın-narın yağan yağış artıq yeri islatmışdı... Nüsrət küçə boyu cərgələnən tikililərdən birinin divarına söykənib yeni aldığı ayaqqabını bir təhər ayağına taxdı və yoluna davam etdi...*

*Daha bədəninin cimildəşməsi güney qarı kimi əriyib gedirdi. Bayaqdan fikir burulğanında burum-burum burulan bir sual onda nigarançılıq doğururdu...Yol boyu düşünürdü ki, onun ayaqqabısının sol tayını geyinəcək adam görəsən indi yağışın altda deyil ki...*